**2009 07 23**
**MƏNBƏ: www.azertag.com**

# Azərbaycan Prezidenti İlham Əliyev Bakı Dairəvi avtomobil yolunun tikintisi ilə tanış olmuşdur



İyulun 23-də Azərbaycan Prezidenti İlham Əliyev Bakı dairəvi avtomobil yolunun tikintisi ilə tanış olmuşdur.

Nəqliyyat Nazirliyinin sifarişi ilə "Azərinşaatservis" MMC-nin tikdiyi Bakı dairəvi yolunda işlərə 2006-cı ilin oktyabrından başlanmışdır. Əsas yolun uzunluğu 21,5 kilometr, köməkçi yolların uzunluğu isə Biləcəri enişi ilə birlikdə 11,65 kilometrdir. Altı hərəkət zolaqlı yolun torpaq yatağının eni 33,5 metr, əsas yolun hərəkət hissəsinin eni 22,5 metr, hərəkət zolaqlarının hər birinin eni 3,75 metr olacaqdır. Layihəyə əsasən, yolun asfalt örtüyünün qalınlığı 19-27 santimetr olacaqdır. Torpaq işlərinin 60 faizi, asfalt işlərinin 11, drenaj borularının çəkilməsinin 90 və kommunikasya xətlərinin köçürülməsi işlərinin 80 faizi başa çatdırılmışdır.

Dövlətimizin başçısına yolun istinad divarlarının texniki-iqtisadi göstəriciləri barədə məlumat verildi. Bildirildi ki, yolun tikintisi zamanı yamaclarda aşkar edilən çatların və sürüşmənin qarşısının alınması məqsədi ilə 22 min 359 kvadratmetrlik torpaq istinad divarlarının çəkilməsi nəzərdə tutulmuşdur. Bu işlərin 10 faizi başa çatdırılmışdır. Burada 640 metr uzunluğunda beton istinad divarları da tikilir. Həmin divarların 320 metrlik hissəsi hazırdır. Ərazidə 652 ədəd drenajların yerləşdirilməsi nəzərdə tutulmuş, işlərin artıq 62 faizi görülmüşdür.

Dövlətimizin başçısı Bakı-Rusiya, Bakı-Gürcüstan və Bakı-İran sərhədləri avtomagistrallarını birləşdirəcək bu layihə üzrə tikinti işlərinin keyfiyyətlə yerinə yetirilməsi barədə tapşırıqlarını verdi.

Sonra Prezident İlham Əliyev Bakı dairəvi yolunun Bakı-İran sərhədi avtomagistralı ilə birləşəcək hissəsinə gəldi. Dövlətimizin başçısına məlumat verildi ki, layihə çərçivəsində 6 körpü, 1 yeraltı avtomobil keçidi, 1 yeraltı piyada keçidi və 4 avtobus dayanacağının inşası nəzərdə tutulmuşdur. Artıq körpülərin tikintisinin 80 faizi, yeraltı keçidlərin tikintisinin isə 96 faizi başa çatdırılmışdır. Tikinti işlərinə 400 nəfərdən çox işçi qüvvəsi və 300-dək texnika və avadanlıq cəlb edilmişdir. Ümumilikdə, işlərin 63 faizinin başa çatdırıldığı Bakı dairəvi yolunun 2010-cu ilin avqustunda istifadəyə verilməsi nəzərdə tutulur. Prezident İlham Əliyev işlərin yüksək keyfiyyətlə və vaxtında başa çatdırılmasını tapşırdı və müvafiq tövsiyələrini verdi.